# Mustafa Quliyevin klassik irs konsepsiyasında Füzuli yaradıcılığı

**Qızqayıt Süleymanova**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Qızlar Universitetinin dosenti*

**Rəyçilər:** filol.ü.e.d., prof. N.Ş. Şəmsizadə,
filol.ü.f.d., dos. İ.M. Məmmədli

**Açar sözlər:** klassik irs, konsepsiya, ədəbi münaqişə, sufizm, panteizm, mistika, əruz heca, ədəbi tənqid

**Ключевые слова:** классическое наследие, концепция, литературный конфликт, суфизм, пантеизм, мистика, аруз хеджа, литературная критика

**Key words:** classical heritage, concept, literary conflict, Sufism, pantheism, mysticism, syllabic, literary criticism

Klassik bədii fəlsəfi və nəzəri irsin ayrı-ayrı mərhələ və şəxsiyyətlərin milli müstəqilliyimizin mənafeyi baxımından tədqiqi tarixi bir zəruriyyətə çevirilib. Çağdaş Azərbaycan ədəbiyyatşünaslığı bu baxımından iki problemlə üzləşib: bu vaxta qədər totalitar sovet ideologiyasına uyğun gəlmədiyi üçün tədqiqatdan kənarda qalmış irs və onun yaradıcılarının öyrənilməsi; və yanlış və birtərəfli öyrənilmiş mərhələ və şəxsiyyətlərin yenidən araşdırılması.

Ədəbi keçmişə klassik bədii sərvətə münasibət 20-30-cu illər tənqid və ədəbiyyatşünaslığının ən mürəkkəb ziddiyyətli problemlərindən idi. Bu problemə münasibətdə tənqidin nəzəri metodoloji gücsüzlüyü meydana çıxırdı. Məhz bu kontekstdə komissar və tənqidçi M. Quliyevin klassik bədii irsə konkret olaraq dahi “qəlb şairi” Məhəmməd Füzuliyə münasibətini səciyyələndirən bəzi məqamlara nəzər salaq.

M. Quliyevin 1930 cu ildə Bakıda rus dilində çap olunmuş “Oktyabr və türk ədəbiyyatı” monoqrafiyası Füzuli yaradıcılığına münasibətlə başlayır. Göründüyü kimi kitab Ədəbiyyatımızın əsasən anadilli dövrünü əhatə edir. Mütəxəssislərə yaxşı məlumdur ki, bu dövrdə yazılı ədəbiyyat tariximizin başlanğıcını Nəsimidən (M.F. Köprülü), “İslamiyyətin zühurundan” (İ. Hikmət) hətta M.P. Vaqifdən başlamaq (F. Köçərli) ənənəsi mövcud idi. Görkəmli ədəbiyyatşünas S. Mümtaz dərin tədqiqatlarına əsaslanaraq yazırdı “Azərbaycan ədəbiyyatı yoxdur deyən naümidlər... biləcəklər ki, biz min iki yüz illik möhtəşəm bir ədəbiyyata malikik və tarixi – ədəbiyyatımız Vaqifdən deyil, çox-çox irəlidən başlayır” (1, 327). dövrünün bir sıra tədqiqatçılarına o cümlədən S. Mümtazın araşdırmalarına istinad edən tənqidçi və filosof Məmmədkazım Ələkbərli Şura yazıçılarının I Ümumittifaq qurultayına (1934) “Azərbaycan ədəbiyyatı” adlı məruzəsində yazılı Azərbaycan ədəbiyyatı tarixini VIII əsrdən Harun ər Rəşidin arvadı Zübeydə xatundan başlamaq fikrini irəli sürürdü (2, 3).

Ötən əsrin 20-30-cu illərdə yazılı Azərbaycan ədəbiyyatının ilk böyük dühası mərhələ yaradan şəxsiyyəti olaraq M. Füzuli qəbul olunurdu ki, M. Quliyevin kitabında da biz bunu görürük. Əlbəttə bu ilk növbədə Azərbaycan ədəbiyyatının orta əsrlərdən əvvəlki çağlarının ədəbi abidə və şəxsiyyətlərinin öyrənilməməsindən, ikincisi isə fars dilində yaradılmış zəngin bədii irsin “Fars ədəbiyyatı” adlandırılmasından irəli gəlirdi. “M. Quliyevin ədəbiyyat tarixi nəzəriyyəsində orijinal cəhət bununla bağlıdır ki, o Azərbaycan ədəbiyyatını tarixi xronoloji

ardıcıllıqla izləmir, ona hər bir dövrün ən başlıca, aparıcı estetik konsepsiya və fəlsəfi kontekstində nəzər salır. Beləliklə, Nəsimidən və Füzulidən tutmuş yeni dövrə - XIX əsrə qədərki mərhələnin ən qüdrətli cərəyanı sufizm seçilir" (3, 174-175). İxtisasca riyaziyyatçı olan M. Quliyev nəzəri təfəkkürə malik idi, ona görə də, klassik irsin ədəbi nəzəri dəyərlənməsi onu daha çox məşğul edirdi. O yazırdı: "Öz ideologiyası baxımından Nəsimi sufi mistik idi. Qüdrətli güc və inam sahibi olan Nəsimi öz ideya və görüşlərini cəsarətlə təbliğ edirdi". Nəsimi "Allah məndədir və təbiətin bütün hadisələrindədir" – deyirdi (4, 6). Beləliklə, M. Quliyev Nəsimini hər şeydən öncə bir filosof sufi – mistik kimi qəbul edir. Onun görüşlərində sufizmin daha yeni mərhələsini – hürufizmi ayırmaq istəmirdi.

Quliyev deyirdi ki, "Bütün mədəni Şərqdə məşhur olan" bir şair kimi M. Füzuli poeziyası onu ana dilində oxuyan hər kəs üçün doğmadı. Tənqidçiyə görə, M. Füzulinin poeziyasının sheri onun dərin xəlqiliyindədir. O, bu dahi qəlb şairinə tarixi nöqteyi-nəzərdən yanaşır. Onun ecazkar bədiiliyini kifayət qədər görə və göstərə bilmirdi. Çünki, M. Quliyev marksist tənqidçi idi. O, bədii formanı yüksəltməyi formalizm kimi qəbul edirdi. Klassik bədii irsə öz dövrünün gündəlik ötəri inqilabi tələbləri ilə yanaşan M. Quliyev "Yeni ədəbiyyat yeni mündəricə üçün köhnə şəkil, köhnə qəlib kifayət deyildir" – deyərək, bütün Şərq, o cümlədən Azərbaycan klassik poeziyasına misilsiz bəşəri nümunələr bəxş etmiş heca və əruz vəznlərinin yeni ədəbiyyat üçün köhnəlmiş hesab edir, yararsız sayırdı: "Əruz sufi formadır XIX əsrə qədərki bütün klassik ədəbiyyat əruzu tətbiq etmişdir. Füzuli, Nəsimi, Sabir, S.Ə. Şirvani, Hadi əruzun tərəfdarıdırlar. Bu köhnə şeir forması fars poeziyasına məxsusdur. Fars dilinin fonetikasına, ritminə uyğundur.

Müasir şairlər bu formanı tətbiq edərkən, fars və ərəb sözlərindən istifadə məcburiyyətinə qalırlar. Əruz həmçinin türk dilinin farslaşmasını da təmin edir. Köhnə ibtidai forma olan heca türk dilinin ritminə uyğundur. Vaqif öz poemasını əsasən bu formada yaratmışdır. Aşıqlar, xalq şairləri öz nəğmələrini öz şeirlərini yaradarkən bu formaya müraciət edirdilər. Heca köhnəlmişdir; o poeziyaya monotonluq, yekrənglik gətirir o daha az ritmik, musiqilidir. Biz bu sufi ibtidai mövqelərdə dayana bilmərik. Mübarizənin, yüksəlişin, ilhamın, inqilabi ehtirasların yeni poeziyasını əruz və hecanın köhnə çərçivələrinə sığışdırmaq qeyri mümkündür" (4, 50).

Fikrimizcə, belə münasibəti təkcə proletkultçuluq təzahürü kimi izah etmək olmaz. Burada rus marksist tənqidinin Şərq ənənələrinin yeni ədəbiyyat və sənət üçün yararsızlığı barəsində ötən əsrin 20-30-cu illərində irəli sürdüyü yalnış, və saxta birtərəfli konsepsiyanın da mühüm rolu vardır. Təkcə M. Quliyev deyil, o dövrün bir çox tənqidçilərinin əsərlərində belə mülahizələrə rast gəlmək olar. Məsələn, dövrün qüdrətli tənqidçisi Ə. Nazim "Mayakovskini öyrənəlim" məqaləsində yazırdı: "Bugünki şeirimizdə ilk sırada böyük Puşkin-Mayakovcki şeirindən öyrənmək şüarına zidd gedənlər şüurlumu, şüursuzmu bizi Şərq mistik ədəbiyyat meşəsinin meymunlarına çevirməkdən başqa bir iş görmürlər" (5, 351). Füzulinin məhəbbət fəlsəfəsini "ardıcıl idializ"in təzahürü kimi izah edən M. Quliyev onun yaradıcılığının orta əsrlərin elmi fəlsəfi zəminində formalaşdığını, başqa sözlə intibah səhifəsini görə bilmirlər: Füzulinin qəzəlləri panteizmlə yoğrulmuşdur, şair həyatın boşluğundan və faniliyindən şikayətlənir. Şair filosof, onu bilmək kifayətdir ki, heç nəyi bilmək olmaz deyir və epoxasının bütün səbatsızlığı burada ifadə olunur. Füzuli zəmanəsinin ən qabaqcıl və mədəni adamı idi. Fəlsəfə və ictimai elmlər sahəsindəki bütün məlumatlar ona məlum idi. Onun hər şeiri misilsiz fikir deməkdir. Şairin hər bir obrazında geniş həyati bilik, psixologiya təbiət hadisələrinin dərin təhlili meydana çıxır" (6, 5). Tənqidçinin Füzuli haqqında bu qənaəti konseptual səciyyə daşıyır və onunla razılaşmamaq olmaz. Lakin, onun Nizamini Azərbaycanda yaşamış fars

şairi hesab etməsi, "qədim türk ədəbiyyatı bir neçə fars şairinin əsarətində olmuşdur" (6, 9.) fikri ilə razılaşmaq olmaz.

M. Quliyevin Şərqdə iftixara layiq ədəbi tarixi və fəlsəfi fikir hərəkatı olan sufizmlə bağlı mülahizələri diqqətə layiqdi. Sufizmi vahid fəlsəfi fikir hərəkatı kimi təhlil edən M. Quliyev onun tərkibindəki təriqət müxtəlifliyini də təhlil edə bilmişdi: "Bəzi müsəlman ölkələrində sufizm xalis mistika digərlərində isə hind buddizmi və neoplatonizmə yaxın olan panteistik teosofiya ilə birləşirdi" (6, 68).

Klassik bədii irs, o cümlədən ədəbi tarixi prosesin mərhələləri ilə başlı fikir və mərhələlər, M. Quliyevin ədəbi görüşlərinin tərkib hissəsini və onun aparıcı istiqamətlərindən birini təşkil edir. Onun klassik söz sənəti ilə fikirləri birmənalı deyil. Öz dövrü kimi zəngin və ziddiyyətlidir. Bu ziddiyyətlər isə çox vaxt tənqidçinin zövq və istedadından deyil, "dağılan və doğulan" zəmanənin iddialarından, arxasında sırf siyasi, inqilabi maraq dayanan bu iddiaların törətdiyi fikir ixtilaflarından ədəbi münaqişələrdən gəlirdi. "Klassik poeziyanın dilində ərəb fars sözlərinin mövcud olması XX əsrin 20-ci illərinin ədəbi tənqidində vulqar-sosioloji fikirlərin intişar tapmasına imkan verirdi" (7, 78). "Həm klassik, həm də müasir bədii irsə münasibətdə estetik amilin sosioloji aspektə nisbətən irəli keçməsi uğrunda mübarizə bütövlükdə 20-30-cu illər tənqidinin əsas təşəkkül istiqamətlərindən idi. Bu sahədə M. Quliyevin sənət konsepsiyasının da rolu böyük olmuşdur".

Bütövlükdə ötən əsrin 20-30-cu illər tənqidi və nəzəri estetik fikrini, o cümlədən Mustafa Quliyevin sənət konsepsiyasının əsasında materialist dünyagörünüşü dayanırdı. Müasirləri Ə. Nazim, H. Zeynallı, B. Çobanzadə, İ. Hikmət kimi o da sənətin varlığa estetik münasibətlərini materialistcəsinə həll edir, həyatı birinci, həlledici sənəti isə ondan asılı hesab edirdi. Bu səbəbdən də onlar "Sənət sənət üçündür" nəzəriyyəsinə qarşı çıxır "sənət xalq üçündür" xətti-hərəkətini davam etdirir, başqa sözlə o dövrdə və bütün sovet zamanında məşhur olan "İncəsənət xalqa məxsusdur" şüarını müdafiə edirdilər.

XX əsrin 20-ci illəri tənqidi o cümlədən həmin tənqidin fəal nümayəndəsi M.Quliyev universal anlayışları izah edərkən düzgün mövqedən çıxış edirdi. Onun incəsənət haqqında fikri buna misal ola bilər: "İncəsənət cəmiyyətin psixolojisinə, kütlənin düşüncəsinə təsirdə bulunur, insanların zövq və təvəccöhünü təşkil edir, onların fikir və hisslərini sistemə salır" (8, 16).

XX əsrin 20-30-cu illərində M. Quliyevə yaxından bələd olan müasirləri sonralar onun bəzi ifratlarına da düzgün qiymət verirdilər "M. Quliyevin tənqidi fikirlərində, onun işində tədbirlərində də bəzən ifrat olurdu. Lakin bu ifrat ötəri xarakter daşıyır, onun ideya mövqeyində əsas yer tutmurdu. Elə hallarda olurdu ki, onun ifrat kimi görünən fikri, sözü əslində geriliyə, avamlığa, nadanlığa qarşı bir protest, bir könül hayqırtısı kimi adi norma və vərdişlərin çərçivəsini aşmış olurdu" (9., 4). ... Bu nəslin taleyinə 37-nin qanlı represiyaları qismət oldu.

**Məqalənin aktuallığı.** Klassik bədii fəlsəfi və nəzəri irsin ayrı-ayrı mərhələ və şəxsiyyətlərin milli müstəqilliyimizin mənafeyi baxımından tədqiqi işini məqalənin aktuallığı hesab olunmalıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik M.Quliyevin 1930 cu ildə Bakıda rus dilində çap olunmuş "Oktyabr və türk ədəbiyyatı" monoqrafiyasının Azərbaycan Füzulişünaslığında yerini ilk dəfə təhlil etməkdən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə tənqid tarixi və füzulişünaslıqla məşğul olan mütəxəssislər, ədəbiyyat müəllimlərinə, doktorantlar, magistrantlar və bakalavrlara fayda əxz edə bilər.

## Ədəbiyyat


1. Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yacıçı, 1986.
2. Ələkbərli M. Azərbaycan ədəbiyyatı. Bakı: Azərnəşr, 1935.
3. Şəmsizadə N. Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Ozan, 1997.
4. Кулиев М. Октябрь и тюркскоя литература. АЗ.ГНИИ, 1930.
5. Ə. Nazim. Seçilmiş əsərləri. Bakı: Yazıçı.
6. Кулиев М. Октябрь и тюркскоя литература. АЗ.ГНИИ, 1930.
7. Salmanov Ş. Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi. Bakı: Elm, 1980.
8. Quliyev M. "İncəsənət və hərb", "İnqilab və mədəniyyət", 1928, № 11-12
9. R. Rza. Əgər sağ olsaydı... "Ədəbiyyat və incəsənət" qəz., 1969, 11 yanvar


**Г. Сулейманова**

## Творчество Физули в концепции классическое наследие М.Кулиева

### Резюме

В данной статье рассматривается проблема классическое наследие в творчестве одного из ведущего критика-литературоведа 20-30-х годов XX века М.Кулиева. Разрабатывается такие спорные проблемы классическое наследие, поэтика и эстетика Физули аруз хеджа и суфизм в азербайджанской литературе.

**G. Suleymanova**

## Fizuli's works in the concert Guliyev's classical heritage

### Summary

In this article, the problem of the classical heritage in the creative work of one of the leading critic of the literary critic of the 20-30's, M. Guliyev, is considered. such controversial problems are being worked out. The classical heritage, the poetics and the esthetics of Fizuli aruz and hedge and Sufism in Azerbaijani literature.

**Redaksiyaya daxil olub:** 25.01.2018